**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaş Ağayev Salman Malık oğlunun 05 yanvar 2010-cu il tarixli 400 saylı müraciətinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar 65 saylı Saatlı – Sabirabad – Kürdəmir seçki dairəsi üzrə Seyidlər bələdiyyəsi üzvlüyünə namizəd Ağayev Salman Malik oğlu Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, adı çəkilən dairə seçki komissiyası tərəfindən qanunsuz hərəkətsizliyin edilməsini bildirmiş və qanunla müəyyən edilmiş qaydada tədbirlər görülməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Mərkəzi Seçki Komissiyası müraciəti qanunla müəyyən olunmuş müddətdə, tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırmışdır.

Araşdırma nəticəsində əldə olunan sübutlardan görünür ki, 22 və 29 dekabr 2009-cu il tarixlərdə Salman Ağayevin şikayəti seçki qanunvericiliyinin tələbinə uyğun olaraq, komissiya tərəfindən baxılmış və qəbul olunmuş qərarın maraqlı tərəflərə çatdırılması ilə bağlı müxtəlif tədbirlər görülmüşdür.

Beləliklə də, 65 saylı Saatlı – Sabirabad – Kürdəmir seçki dairəsi dairə seçki komissiyasının hərəkətsizliyi ilə bağlı irəli sürülmüş iddialar öz təsdiqini tapmamışdır.

Bu səbəbdən də müraciət əsassız hesab edilərək təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. Vətəndaş Ağayev Salman Malik oğlunun 05 yanvar 2010-cu il tarixli 400 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Natiq Məmmədov |
| Üzvlər | Fuad Cavadov |
| | Ramiz İbrahimov |

Validə Kazımova

Qabil Orucov

Tofiq Həsənov

İlham Məmmədov

Nizami Nadirov

Azər Tağıyev

Tamam Cəfərova

Rövşən İsmayılov

Oktay Hümbətli